İQTİSADİ İSLAHATLARIN
TƏHLİLİ VƏ KOMMUNİKASİYA
MƏRKƏZİ

Aprel 2017

# AZƏRBAYCAN İQTİSADİ İSLAHATLAR İCMALI



Baş redaktor : Dr. Vüsal Musayev

İqtisad Elmləri Doktoru
London Universiteti

# SAHİBKARLARIN MÖVCUD VƏ YA İNŞA EDİLƏCƏK TİKİNTİ OBYEKTLƏRİNİN ELEKTRİK ENERJİSİ İLƏ TƏCHİZATI PROSEDURUNUN SADƏLƏŞDİRİLMƏSİ




Azərbaycanda biznes və investisiya mühitinin əlverişliliyini, yerli və xarici investorlar üçün cəlbediciliyini daha da artırmaq, beynəlxalq reytinqlərdə mövqeyini yaxşılaşdırmaq, enerji təchizatı şəbəkələrinə qoşulma prosedurunu və müddətini optimallaşdırmaq, göstərilən xidmətləri daha keyfiyyətli, rahat və innovasiyaların tətbiqi ilə həyata keçirmək, bu sahədə şəffaflığı və istehlakçı məmnunluğunu təmin etmək məqsədilə, Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən 4 aprel 2017-ci il tarixli müvafiq Fərman imzalamışdır.

Fərmana əsasən, sahibkarların tələb olunan gücü 150 kVt-a qədər (150 kVt da daxil olmaqla mövcud 0,4 kV-luq şəbəkədən) olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin, layihə-smeta sənədlərinin hazırlanması və verilməsi, habelə enerji təchizatı şəbəkəsinə qoşulması Qaydası" təsdiq olunmuşdur.

Bu istiqamətdə qeyd edilən əməliyyatların həyata keçirilməsinə nəzarət etmək məqsədilə, Texniki Şuranın yaradılması və tapşırığa əsasən şuraya rəhbərliyin Azərbaycan Respublikası Energetika Nazirliyinin seçilmiş nümayəndəsi tərəfindən həyata keçirilməsi nəzərdə tutulur. Sözügedən şuranın digər üzvləri arasında, eyni zamanda, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Bakı Nəqliyyat Agentliyi, "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti, "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyəti, Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı yanında Sumqayıt Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsi, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı yanında Gəncə Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsi və yerli icra hakimiyyəti orqanlarının nümayəndələri yer almaqdadır.

Sözügedən Fərmana əsasən, sahibkarların elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin, layihə-smeta sənədlərinin hazırlanması və verilməsi, habelə enerji təchizatı şəbəkəsinə qoşulması ilə bağlı müraciətlərin reallaşdırılması prosesinin "ASAN Kommunal" mərkəzləri ("ASAN Kommunal" mərkəzləri yaradılmayan regionlarda – bu mərkəzlər yaradılanadək "ASAN Xidmət" mərkəzləri) vasitəsilə həyata keçirilməsi nəzərdə tutulmaqdadır.

Belə ki, Texniki Şuranın fəaliyyətinin müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə və göstərilən xidmətlərin təkmilləşdirilməsi məqsədilə innovasiyaların tətbiqi yolu ilə "ASAN Xidmət" mərkəzlərinin fəaliyyət prinsipləri və standartları əsasında təşkil edilməsi verilən tapşırıqlar arasında öz əksini tapmışdır.

Burada, Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Bakı Nəqliyyat Agentliyinin, Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı yanında Sumqayıt Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsinin, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı yanında Gəncə Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsinin və yerli icra hakimiyyəti orqanlarının nümayəndələri də yalnız müvafiq inzibati ərazi vahidləri üzrə olmaqla, "ASAN Kommunal" mərkəzlərində ("ASAN Kommunal" mərkəzləri yaradılmayan regionlarda – bu mərkəzlər yaradılanadək "ASAN Xidmət" mərkəzlərində) yaradılmış Texniki Şuranın tərkibinə daxil edilirlər.

Fərmanda, o cümlədən Azərbaycan Respublikasının Nazirlər Kabinetinin beynəlxalq təcrübə nəzərə alınmaqla, "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun yeni layihəsini doqquz ay müddətində hazırlayıb Azərbaycan Respublikası Prezidentinə təqdim etməsi kimi tapşırıqlar öz əksini tapmışdır.

Eyni zamanda, əhalinin elektrik enerjisinə artan tələbatının təmin edilməsi məqsədilə, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən "2018–2020-ci illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsi layihələrindəki dövlət investisiya proqramları"nda 220 kV-luq üç yarımstansiyanın

Bakı şəhərində tikintisi və maliyyələşdirilməsinin həyata keçirilməsi ilə bağlı təkliflərin hazırlanaraq Azərbaycan Respublikası Prezidentinə təqdim edilməsi nəzərdə tutulmuşdur və bu Fərmandan irəli gələn digər məsələlərin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən həll edilməsi vurğulanmışdır.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə verilən tapşırıqlar arasında, o cümlədən Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə birlikdə beynəlxalq təcrübəni və bu Fərmanla təsdiq edilmiş Qaydanın tələblərini nəzərə almaqla, sahibkarların tələb olunan gücü 150 kVt-dan yuxarı olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin, layihə-smeta sənədlərinin hazırlanması və verilməsi, habelə enerji təchizatı şəbəkəsinə qoşulması prosedurunun sadələşdirilməsi, bununla bağlı tələb olunan müddət və xərclərin azaldılması üçün qanunvericiliyə dəyişikliklər edilməsi barədə təkliflərin hazırlanaraq üç ay müddətində Azərbaycan Respublikası Prezidentinə təqdim olunması kimi məqamlar öz əskini tapmışdır.

"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin öhdəlikləri sırasında isə rayon və şəhərlər üzrə enerji təchizatı şəbəkələrinin hər bir yarımstansiya və transformator məntəqəsi, habelə onlarda olan sərbəst güclər və qoşulma imkanları haqqında məlumatların (mütəmadi yenilənməklə) bir ay müddətində Azərbaycan Respublikasının Energetika Nazirliyinə verilməsinin təmin edilməsi və müvafiq məlumatların (mütəmadi yenilənməklə) iki ay müddətində öz rəsmi internet saytında yerləşdirilməsi qeyd olunmuşdur.

Verilən tapşırıqlar arasında Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə və sözügedən sənəd üzrə qeyd olunan dövlət orqanlarına və qurumlarına bu Fərmandan irəli gələn vəzifələrin icrası ilə bağlı Texniki Şuranın fəaliyyətinə lazımi köməkliyin göstərilməsi, onun müraciəti əsasında zəruri məlumatların və sənədlərin təqdim olunmasının təmin edilməsi, ö cümlədən Azərbaycan Respublikası Energetika Nazirliyi, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti, "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyəti və rayon (şəhər) icra hakimiyyəti orqanları tərəfindən bu Fərmandan irəli gələn digər məsələlərin həll edilməsi kimi məqamlar qeyd olunmuşdur.


www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az
Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073
info@ereforms.org
(+994)12 5213318
/ iqtisadiislahat